# Elmə şərəflə xidmət



**Bütün tarixd ərzində zəngin elm, təhsil və mədəniyyət beşiyi olmuş Azərbaycan fitri istedada malik insanların yaşayıb-yaratdığı bir məkan kimi hər zaman seçilmişdir. Bu insanların sırasında dünya elmində özünəməxsus iz qoymuş, elm tarixinə adını qızıl hərflərlə yazdırmış şəxsiyyətlər də az olmamışdır. Elmi və elmi-təşkilati uğurları ilə Azərbaycan xalqına dəyərli töhfələr vermiş elm adamları sırasında 100 illik yubileyini bu günlərdə qeyd etdiyimiz zoologiya-parazitologiya və baytarlıq təbabəti üzrə tanınmış alim, mərhum akademik Musa Əbdürəhman oğlu Musayevin özünəməxsus yeri vardır.**

Ot kökü üstə bitər, deyirlər. Musa Musayev 1921-ci il dekabrın 27-də Gəncə şəhərində tanınmış ziyalı ailəsində dünyaya göz açmışdır. Gələcək alim XX əsrin əvvəllərində Azərbaycanda və bütün Qafqazda tanınmış ictimai xadim və böyük nüfuz sahibi olmuş Zaqafqaziya şeyxülislamı, Cənubi Qafqazın Ruhani İdarəsinin rəhbəri axund Məhəmməd Pişnamazzadənin (1853-1932) nəvəsi olmuşdur. Musa Musayevin dərin biliklərə yiyələnməsi, yüksək intellektli, genişprofilli alim kimi yetişməsində və əldə etdiyi nailiyyətlərdə genetik amillər, şəxsi istedadı və əməksevərliyi ilə yanaşı, Gəncə mühiti də mühüm rol oynamışdır.

Onu da qeyd etmək lazımdır ki, Musa Musayevin çətinliklər və məhrumiyyətlərlə dolu uşaqlıq dövrü böyük sosial dəyişikliklər, yeniyetməliyi repressiya, gənclik və tələbəlik dövrü isə İkinci Dünya müharibəsi illərinə təsadüf etmişdir. Lakin bütün bunlara baxmayaraq, gələcək alim seçdiyi inkişaf yolundan dönməmiş, həm orta məktəbi, həm də Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu əla qiymətlərlə bitirmişdir.

Musa Musayev hələ tələbəlik illərində heyvanların yoluxucu və invaziyon xəstəliklərinin öyrənilməsinə xüsusi maraq göstərmiş, Gəncə Rayonlararası baytarlıq diaqnostika laboratoriyasında və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Parazitologiya kafedrasında protozooları, onların törədicilərini dərindən tədqiq etməyə başlamışdır. Musa müəllimin elmin bu istiqamətinə olan sonsuz marağı onu 1946-cı ildə Moskva Baytarlıq Akademiyasının aspiranturasına gətirib çıxarmış və o, burada məşhur alim, SSRİ Dövlət Mükafatı laureatı, akademik S.N.Vişelesskinin rəhbərliyi ilə heyvanların leptospirozunu tədqiq etmişdir.

Musa Musayev aspiranturada təhsil alarkən xüsusi Ümumittifaq Dövlət təqaüdünə layiq görülmüşdür. O, 1948-ci ildə "Heyvanların leptospirozunun seroloji diaqnostikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və burada bir ilə qədər assistent işləmişdir. Dünya şöhrətli kimyaçı alim, Azərbaycan SSR EA-nın prezidenti Yusif Məmmədəliyev Moskvada olarkən M.Ə.Musayevə Azərbaycan SSR EA-nın Zoologiya İnstitutunda işləməyi təklif etmişdir. Bu təklifi qəbul edən Musa müəllim Bakıya dönərək bütün sonrakı həyatını bu instituta və Azərbaycan elminə bağlamışdır. İstedadlı alim 1949-cu ildən 2010-cu ilə qədər - 61 il burada uğurla həm tədqiqatçı, həm də elm təşkilatçısı kimi fəaliyyət göstərmiş, 1960-cı ildən başlayaraq, 50 il müddətində Zoologiya İnstitutunun direktoru vəzifəsində çalışmışdır.

Musa müəllimin ilk elmi axtarışları heyvanların və insanın təhlükəli xəstəliklərindən birinin - leptospirozların öyrənilməsinə həsr olunmuşdur. O, respublikada bu xəstəliyin yayılmasının səbəblərinin müəyyənləşdirilməsi, diaqnozu, müalicəsi və profilaktikasının elmi əsaslarının işlənib hazırlanması işinə böyük əmək vermişdir. Musa Musayev nüfuzlu bir alim kimi SSRİ-də bu sahədə aparılan elmi işlərin planlaşdırılması və həyata keçirilməsində bilavasitə iştirak etmiş, müvafiq istiqamətlərdə kadr hazırlığına böyük zəhmət sərf etmişdir. Onun rəhbərliyi ilə 1948-1960-cı illərdə leptospirozun diaqnostikası, epizootologiyası, patologiyası və immunitet problemləri dərindən araşdırılmış, onlarla məqalə və iki sanballı elmi monoqrafiya ("Heyvanların leptospirozunun seroloji diaqnostikası" (1950) və "Qaramalın leptospirozu" (1959)) yazılmışdır.

Gənc alimin o illərdə təklif etdiyi "Leptospirozun seroloji diaqnostikası" üsulu indi də müasir immunoloji metodlarla yanaşı, geniş istifadə edilir. "Qaramalın leptospirozu" əsəri müəllifin xüsusi tədqiqatları əsasında qaramalın, o cümlədən dünyada ilk dəfə olaraq, camışların leptospirozunun hərtərəfli öyrənilməsi, bu sahədə həm ölkədə, həm də xaricdə nəşr edilmiş külli miqdarda ədəbiyyat materiallarının sistemləşdirilməsi baxımından böyük maraq doğurur. Həmin monoqrafiya yazıldığı dövrə kimi dünya ədəbiyyatında mövcud olan müvafiq məlumatların yeganə elmi ümumiləşdirilməsi kimi praktiki baytar işçiləri üçün qaramalın leptospirozu xəstəliyinə qarşı tədbirlərin görülməsində qiymətli metodik vəsaitdir.

Musa Musayev 1956-cı ildə "Azərbaycanda qaramalın leptospirozu" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, 1960-cı ildə ona SSRİ-nin Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adı verilmişdir. Uzun illər ərzində gərgin və məqsədyönlü elmi, ictimai və pedaqoji fəaliyyətlərini, əldə etdiyi nailiyyətləri nəzərə alaraq, tanınmış alim 1959-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1967-cı ildə isə həqiqi üzvü seçilmişdir. Leptospirozların öyrənilməsi ilə yanaşı, təkhüceyrəli heyvanların tədqiqi sahəsində də əhəmiyyətli işlər görmüş, 1957-ci ildə Zoologiya İnstitutunda Protozoologiya laboratoriyasının yaradılmasına nail olmuşdur. 1985-ci ildə onun təşəbbüsü və rəhbərliyi ilə bu laboratoriyanın əsasında Parazit-sahib münasibətlərinin biokimyəvi əsasları və Prositologiya laboratoriyaları təşkil edilmişdir.

1970-ci illərə qədər heyvanların koksidi və koksidiozlarının öyrənilməsinə həsr edilmiş tədqiqatların nəticələri 30-dan artıq elmi əsərdə, eləcə də "SSRİ-də yaşayan gəmiricilərin koksidiləri" (1965) və daha iki monoqrafiyada öz əksini tapmışdır. "SSRİ-də yaşayan gəmiricilərin koksidiləri" adlı monoqrafiyada 46 sahibdən 150-yə qədər elm üçün yeni növ koksidi təsvir edilmiş, onlardan 15-nin həyat tərzi açıqlanmışdır. Təkhüceyrəli heyvanların Azərbaycanda yayılmış genefondu öyrənilərkən dünya elmi üçün yeni olan 230-a qədər növ təsvir edilmişdir. Bu növlərin elm üçün yeniliyi dünya elmi ictimaiyyəti tərəfindən təsdiqlənmiş, onlar ABŞ, Macarıstan və digər ölkələrdə nəşr olunan kataloq və monoqrafiyalara daxil edilmişdir.

Qeyd olunanlar sübut edir ki, 1968-ci ildə yaradılmış SSRİ Protozooloqlar Cəmiyyətinin birinci qurultayının 1971-ci ildə məhz Bakı şəhərində keçirilməsi heç də təsadüfi olmamışdır. Həmin illərdə Musa müəllim öz tələbələri ilə birgə protozooloji tədqiqatlarını daha da genişləndirmiş, sitologiya, biokimya, molekulyar biologiya və immunologiyanın metod və üsullarını tətbiq etməklə elmin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından çox mühüm olan bu sahəsinin inkişafına yeni təkan vermişdir. Koksidilərin yaşadığı sahib heyvanlara təsiri molekulyar və hüceyrə səviyyələrində araşdırılmış, maddələr mübadiləsinin pozulmasının mexanizmləri nəzəri cəhətdən əsaslandırılmışdır. Biokimyəvi göstəricilərə görə, parazit-sahib sisteminin oxşar və fərqli cəhətləri müəyyənləşdirilmiş, Eimeria cinsinə aid olan parazitlərin oosistalarının təmiz kulturasının alınması və antieymerioz preparatlarının effektliyinin biokimyəvi göstəricilərə görə qiymətləndirilməsi üsulları ixtira edilmişdir.

Akademik Musa Musayevin bilavasitə iştirakı və rəhbərliyi ilə aparılmış fundamental tədqiqatların nəticələri 150-dən çox elmi məqalədə, o cümlədən alimin "Ev quşlarının koksidiozlarında parazit-sahib münasibətlərinin biokimyəvi xüsusiyyətləri" (1977) və "Ev quşlarının parazitləri və onlara qarşı mübarizənin elmi əsasları" (1991) monoqrafiyalarında öz əksini tapmışdır.

Onun şəxsi tədqiqatlarına, yaratdığı protozooloqlar məktəbinin nümayəndələri və digər parazitoloq alimlərlə müştərək əldə etdiyi elmi nəticələrə, onların heyvandarlıq və quşçuluq təsərrüfatlarında geniş miqyasda tətbiqinə aid silsilə əsərlərə görə bir qrup alimlə birgə 1991-ci ildə Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdür.

Musa müəllim dəfələrlə xarici ölkələrdə keçirilmiş nüfuzlu elmi tədbirlərdə Azərbaycanın zoologiya elmini uğurla təmsil etmişdir. O, SSRİ-də keçirilən əksər parazitoloji və protozooloji konfrans, qurultay, simpozium və s. yığıncaqların plenar iclaslarında dəvətli məruzəçi olmuş, elmi tədbirlərin seksiya iclaslarına rəhbərlik etmişdir. Alim Çexoslovakiya, Polşa, Yuqoslaviya, Türkiyə, Bolqarıstan, Hindistan, ABŞ, Almaniya, Fransa, Braziliya və Macarıstan kimi bir sıra xarici ölkələrdə özünün və digər Azərbaycan alimlərinin tədqiqatlarının ən mühüm nailiyyətlərini dünya elmi ictimaiyyətinə çatdırmış, eyni zamanda parazitologiya sahəsində dünya miqyaslı tədqiqatların respublikamızda da aparılmasını təşkil etmişdir.

Kadr hazırlığında da bir sıra əhəmiyyətli uğurlara imza atmış akademik Musa Musayevin rəhbərliyi ilə 28 namizədlik və doktorluq dissertasiyası müdafiə olunmuş, müəllifliyi, elmi redaktorluğu, tərcüməçiliyi ilə 15-dən çox dərslik və dərs vəsaiti nəşr edilmişdir. O, təkcə Azərbaycan üçün deyil, Qazaxıstan, Özbəkistan, Belarus, Moldova kimi ölkələr üçün də çoxsaylı protozooloq alimlər yetişdirmişdir.

Bacarıqlı bir elm təşkilatçısı kimi Azərbaycanda zoologiya elminin ən müxtəlif sahələrinin hərtərəfli inkişaf etdirilməsi akademik Musa Musayevin danılmaz xidmətləri sırasındadır. Onun şəxsi təşəbbüsü və rəhbərliyi ilə Zoologiya İnstitutunda bir sıra yeni elmi laboratoriya və yaradıcı qruplar təşkil edilmiş, insektari və vivarisi olan yeni kompleks inşa edilmişdir. Musa müəllim dəniz və okeanlarda işləyə bilən "Elm" elmi-tədqiqat gəmisinin, Mingəçevirdə kiçik elmi-tədqiqat gəmisinin, texniki avadanlıqlarla təchiz olunmuş Elm-İstehsalat Mərkəzinin yaradılmasının da təşəbbüskarı olmuşdur. Onun rəhbərliyi ilə institutda Zooloji muzey təşkil edilmiş, laboratoriyaların kolleksiya fondu, institutun kitabxanası yenidən təşkil olunaraq zənginləşdirilmişdir.

Alim digər elmi, pedaqoji, təşkilati və ictimai fəaliyyətləri ilə yanaşı, 1959-cu ildən AMEA Biologiya Elmləri Bölməsinin büro üzvü olmuş, 1997-ci ildən isə bu bölmənin akademik-katibi seçilərək 2008-ci ilə kimi həmin vəzifədə çalışmışdır. Musa müəllim bölməyə rəhbərlik etdiyi illər ərzində institutların kollektivlərini biologiya, aqrar və tibb elmləri üzrə beynəlxalq standartlara uyğun və ölkəmizin tələblərinə cavab verən tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi, müvafiq elmi-tədqiqat proqramlarının hazırlanması və yerinə yetirilməsi işinə səfərbər edə bilmişdir.

Onun Azərbaycanın zoologiya elmi qarşısındakı xidmətləri dövlət və xalq tərəfindən hər zaman yüksək dəyərləndirilmişdir. Böyük alim fəaliyyəti dövründə bir sıra orden, medal və fəxri adlarla, o cümlədən SSRİ-nin "Şərəf nişanı" və "Qırmızı Əmək Bayrağı" ordenləri, "Böyük Vətən müharibəsində fədakar əməyə görə" medalı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif olunmuşdur. Akademik Azərbaycanın "Əməkdar Elm xadimi" fəxri adına və Azərbaycan Respublikasının yüksək mükafatına - "Şöhrət" ordeninə layiq görülmüşdür.

Akademik Musa Musayev 2010-cu il dekabrın 4-də vəfat etmişdir. Böyük alim, əsl ziyalının əziz xatirəsi heç vaxt unudulmayacaq. Musa müəllim milli dövlətçiliyə, Vətənə, xalqa sədaqət, elmə şərəflə xidmət edən böyük alim nümunəsi olmuşdur.

**İradə HÜSEYNOVA,**
**Akademik,**
**AMEA-nın vitse-prezidenti.**